Quzey Azərbaycanın Azərbaycancası,

Güney Azərbaycanın Türkcəsi

Mehran Baharlı

2008- Siçan İli

Geçənlərdə Azərbaycan Buduncu (Cumhuriyəti) televiziyonlarında 2008 ilinin başından olmaq üzərə, Türkiyə Türkcəsi ilə yayınlanan izlənclərə (pıroqramlara) yasaq gətirildiyi salığını (xəbərini) duyduq. Yasağın gərəkçəsi, bu “yabancı” dilin “Azərbaycanca”ya “itəm” (zərər) verdiyidir. Bu salıq Paniranist güclər tərəfindən böyük bir sevinc, İran və Güney Azərbaycan Türklüyü tərəfindənsə böyük bir üzüntü ilə qarşılandı. Azərbaycan Buduncunda Türkiyə Türkcəsinə gətirilən yasaq, bizim dilimizə gətirilən yasaqdır. Bu olay belə görülməli, belə

alqılanmalı və bu üzdən də qınanmalıdır. Dilimizin adını (Türkcə) bilə bilməyən və onu qondarma “Azərbaycanca” diyə adlandıran Quzey Azərbaycanlı yetgililər, nəyin ona itəm verdiyini, nəyin ona yarar gətirdiyini necə anlayabilərlər?

Güney’in yazılı-görkül (ədəbi) dili, “Türkcə”dir, “Azərbaycanca” deyildir

Güney Azərbaycan târixi bir yol ayrıcındadır. Günümüzdə Güney Azərbaycan və İran Türklüyünün oluşdurmaq və biçimləndirməkdə olduğu görkül dil, təməl aldığı Güney Azərbaycan və İran’ın başabaşına sərpilmiş Türk budununun (xalqının) dili ilə, Azərbaycan və Türkiyə Buduncları görkül dillərinin birləşməsindən ortaya çıxmaqda və daha doğrusu bu üçünün özgü və yeni biləşgəsidir. Bu üzdən onu “Yenicil (modern) Batı Oğuzcası” adlandıranlar da olmuşdur. Bu dil, özünə Azərbaycan Buduncu görkül dilini ülgü almamaqdadır. Güney’in görkül dili, hər iki qonşu ölkənin görkül dillərinə eşit aralıqda (məsafədə) durur və onların idi (heç) birisini tək başına öz görkül dili olaraq tablamır (qəbul etmir).

Ancaq Güney Azərbaycan və İran Türklüyü, Türkcənin sözdağarcığına yiyələnmə, öz Türk soykökünə qayıdış və dilimizi çağdaşlaşdırma (muâsirləşdirmə) və yenicilləşdirmə (modernləşdirmə) alanlarında (sâhələrində), bunların idi (heç) birinə yiyə (sahib) olmayan Azərbaycan Buduncu deyil, Türkiyə Cumhuriyətinin varsıl (zəngin) denəyimlərindən (təcrübələrindən) yararlanmaqda, orada əldə edilən qazanımları mənimsəməkdə, onları öz denəyimləri və öz qazanımları olaraq görməkdədir. Türkiyənin görkül və yazılı dili (Türkçe vəya Yeni Türkçe) və bu ölkədə törədilən yeni degilər (neolojismlər) Güney'ə yeni kəlimələr sunabiləcək çox önəmli bir qaynaqdır. Bu qaynaq özəlliklə yenicil bügüş (fəlsəfə), bilim, quraşdırım (teḳnoloji), tüzəbilim (huquq), ərklət (dövlət), soyut qavramlar və uzluq (sənət) kimi alanlarda olağanüstü dəyərlidir. Ayrıca budunumuzun Əraqda Türkman adı ilə yaşayan ucqarobası (diyasporası) ilə Türkiyə sınırları içində yaşayan və sayıları milyonları aşan Azərbaycan Türkünün özlərinin yazılı-görkül dilləri olaraq Türkiyə tuğralı (rəsmi) dilini seçdikləri unutulmamalıdır. Güneydə - Azərbaycan Buduncunun tərsinə - xalqımızın özü və dilini Türkiyədə olduğu kimi və doğru

olaraq ürkən (həmişə) “Türk” və “Türkcə” adlandırması da Güney’in kimi örnək aldığını açıqca ortaya qoyur. Son olaraq, İran və Güney Azərbaycanda Türk xalqının içində olduğu bugünkü ulusal (milli) oyanış və dirçəlmədə Türkiyə televiziyonlarının tək başına, hətta Quzey Azərbaycan’ın bağılsızlaşmasından (istiqlalından) daha çox etgi və oynamı (rolu) olduğu da bilinən bir gerçəkdir.

Azərbaycanca, Türkcə deyildir. O Farsca-Ərəbcə-Rusca-Türkcə qarışımı yetərsiz və görksüz bir qarma (hibrid) dildir

Azərbaycan Buduncunun görkül dili, ağır biçimdə Fascadan etgilənmişdir. Bu etgi təkcə dilə girən Farsca söz və tərkiblərlə sınırlanmamaqda, dil bilgisi alanını da içərməkdədir. Hər hansı bir dilin geniş bir biçimdə (şəkildə) başqa bir dilin dilbilgisi qural və yasaları etgisi altına girməsi, o dilin öz qurallarının altüst edilməsi və dərindən yara alması deməkdir. Bugün Azərbaycanda yayqın olan görkül dil, yanlışlarla dolu, yozlaşma və soysuzlaşmağa üz tutmuş bir dildir. Bu dil söz dağarcığı və dil bilgisi açılarından, Farscadan dərindən etgilənmiş və pozularaq yetərsiz və görksüz (çirkin) bir

qarma dil halına dönüşmüşdür. Osmanlı aydın və seçginlərinin yaradıb işlətdikləri uydurma bir dil var idi. Bu dilə doğru olaraq “Türkcə” yerinə “Osmanlıca” deyilmişdir, uçra (çünkü) bu dil üç Farsca, Ərəbcə və Türkcə dillərinin yapmaca (sün’i) bir biçimdə yanyana gətirilməsindən oluşmuşdu. İndi Azərbaycan Buduncunda görkül (ədəbi) dil olaraq işlədilən Azərbaycanca da, qardaşı Osmanlıca kimi, hətta ondan daha bətər, gerçəkdə Türkcə, Farsca, Ərəbcə və Ruscanın qarışımından oluşmuş qarma- uydurma bir dil görüntüsü verməkdədir.

Azərbaycan və İranda Türkcənin geriləməsi, İsmayıl Xaqan (Şah İsmail) dönəmindən sonra başlamışdır. Bu dil tuğralı və ərklət dili olma qonumunu addım addım itirməklə birlikdə, Farsca və Ərəbcə dillərinin əzici və çox ağır etgisi altında qalaraq, başda bilim, bügüş və uzluq olmaq üzərə, hər alanda öz doğurqanlığını itirib, neçə yüzil içində qısır və qarma bir dil halına gəlmişdir. Ardınca Gülüstan və Türkmançay anlaşmalarından sonra gələn son iki yüzildə, başqa bir dil, Ruscanın ağır etgisi altına girmişdir. Bugün Quzey Azərbaycanda idi bir dəyişiklik və düzəltməyə uğramadan, görkül və tuğralı dil olaraq

tablanan dil, iştə bu qısır-qarma dildir. Bu durum Güney'in, Farsların boyunduruğundan qurtulduqdan sonra, İran ərklətinin basqıları ilə yaranmaqda-yaradılmış olan uydurma "Azəri-Fazəri"ni öz görkül və yazı dili diyə tablamasına bənzər. Azərbaycan Buduncunda bu eybəcər dilə Türkcə yerinə Azərbaycanca deyirlər. Bizcə bu adlandırma olduqca yerində (haqlı) və doğrudur, uçra bu dili Türkcə adlandırmaq, Türkcəyə gücəm (zülüm) və sayqısızlıq olardı. Gerçəkdə Güney Azərbaycan və İranda Türk budununun qonuşduğu və burada biçimlənməkdə olan yenicil və çağdaş görkül dilini "Türkcə" adlandırması, bu dilin Azərbaycan Buduncunun görkül dili olan "Azərbaycanca"dan ayrıq (fərqli) olduğunun ən çarpıcı və ən gözəl bir qanıtıdır (subutudur).

Azərbaycan Buduncunda işlədilən görkül dil və orada var ol[may]an dil anlayışı, Güney Azərbaycan və İran Türklüyünə ülgü və təməl alınmamalıdır. Özəlliklə görkül dil və söz dağarcığı qonularında, Azərbaycan Buduncunun görkül dili – ondan yararlanılması gərəkdiyinin tabası (rəğmən) – Güney üçün tək təməl və qaynaq diyə görülməməlidir. Ötə yandan, Güneydə bu picin dilin İran və Güney

Azərbaycanın görkül və yazılı dili olmasını savunan və yetirim (təbliğ) edən Rus vurqunları və tutucularla əkinc (kültür) savaşımı aparılmalıdır.

Azərbaycan Buduncunda yenicil dil anlayışı yoxdur

Azərbaycan Buduncunda Türk dilinin düşdüyü acınacaqlı durumun nədənlərini belə sıralayabilərik:

1- Dil anlayışı əksikliyi və dilin üzərində (haqqında) dövlət yönətgisinin (siyasətinin) olmayışı: Azərbaycan Buduncunda gənəl olaraq yenicil dil anlayışı movcud deyildir və özəlliklə ərklət, dilin qorunması və gəlişdirilməsi, yenicilləşdirilməsi, çağdaşlaşdırılması və dirgili (canlı) bir varlıq olaraq olanaq- yetənəklərinin çeşitləndirilib çoxaldılması ilə ilgili hər hansı bir yekə tasarı (master plan) və yönətgiyə yiyə deyildir.

2- Dilin adını dəyişdirmək: Azərbaycanda Rus sömürgəçiliyinin (ḳoloniyalisminin) yıxıcı etgisinin ən açıq izini, oradakı budun və dilin “Türk” və “Türkcə”dən qondarma “Azərbaycan” və “Azərbaycanca”ya, özü də könüllü olaraq dəyişdirildiyində görəbilərik. Azərbaycan Buduncunda bizim dilin Türkcə olduğu və Türkcənin də

bizim dil olduğu düşüncəsi və inancı, idi bir vaxt ürəklərdə və beyinlərdə kök salabilməmişdir. İştə Türkiyə budununun dilini Azərbaycan xalqının dilinə “yabancı” sanan anlayış da, bu sömürgələşmə (ḳoloniyal) sayrılığın başqa bir bəlirtisidir. (Azərbaycan və Türkiyə Cumhuriyətlərində budunların qonuşduğu dillər, ən azından dilbilmi baxımından, iki ayrı dil yox, bir dilin iki olduqca yaxın ləhcəsi sayılır). Bu açıdan Fars sömürgəçiliyi boyunduruğu altında yaşamasının tabası, qondarma “Azəri” və “Azəricə” adlarını mənimsəməyən, bəlkə onlara var gücü ilə təpgi göstərən Güney Azərbaycan, öz bağılsız ərkləti və yüzlərcə akademi, institut, ...yə yiyə olan Quzey Azərbaycandan, bu açıdan daha irəlidə və ulusal kimliyinə bağlıraq durumdadır.

3- Dildən özgün Türkcə sözləri dışlamaq: Azərbaycanca dilində, dilimizdə var olan minlərcə özgün Türkcə degiyə (kəliməyə), özbaşınalıqla bayrı (arxayik) damqası vurulmuş, bunlar yazılı və danışıq dillərindən dışlanmışdır. Bu yaxlaşımla da özləri demişkən “bu qədər zəngin dilimizi, miskin günə salıblar” (bu dənli varsıl dilimizi, yoxsul günə salıblar). Gəlinən bugünkü durum, Azərbaycan

Buduncunda yazarların çoxunun, öz yazılarını toplamı 100-400 degini geçməyən sısqa bir sözdağarcığı köməyi ilə - bunun da yüzdə doxsanı Farsca, Ərəbcə, Rusca sözlərədən oluşmaqdadır – yazmalarıdır. Ötə yandan Azərbaycan Buduncunda Türkcə quralları təməlində (əsasında) yenidegi törətmə yolu süräci durdurulmuş, onun yerinə arasıra Farsca əklərdən kömək alaraq yeni sözlər törətmə yolu mənimsənmişdir. Törədilən belənçi sözcüklərin önəmli bölümü isə, dilbilgisi baxımından yanlışlıqlarla doludur.

4- Farsca etgisini qorumağa çalışmaq: Azərbaycan Buduncunda ortaçağ Azərbaycan seçginlərinin alışqanlıqlarının davamında, hələ də Fars dili və görksözünə (ədəbiyatına) qarşı bir çeşit vurqunluq (heyranlıq) duyqusu və aşağılıq düyümüqarmaşası (üqdəsi ḳompleksi) vardır. Onlara görə dilimizdə Farsca degi, tərkib və hətta dilbilgisi qurallarını işlətmək, bir çeşit aydınlıq, soyluluq və yüksəklik bəlirtisidir. Güney'in tərsinə, Azərbaycan Buduncu doğrudan Fars sömürgəçiliyi və oradakı dil də Fars dili tərəfindən yox edilmə belini (təhlükəsi) ilə qarşı qarşıya qalmamışdır. Bu isə onların, Farscanın dilimiz üzərindəki olumsuz etgilərinə vurdum duymaz davranma,

hətta Farsca degi və dilbilgisi qurallarını özlərininki sanmalarının başqa bir nədənir.

5- Rusca etgisini qorumağa çalışmaq: Sözsüz geçmişdə Rus dili, görksözü və uyqarlığının (mədəniyyətinin) Azərbaycan'ın çağdaşlaşma, yenicilləşmə, bundalı (seküler) və eldəmləşmə (layikləşmə) və batıya yaxınlaşmasında önəmli yarar və payı olubdur və gələcəkdə də olacaqdır. Ancaq bu gerçək, dilimizin Rus dili tərəfindən elik olunması (istila edilməsi) gərəkdiyi anlamına gəlməz. İki yüz ilə yaxın Rus sömürgəçiliyi altında yaşamaq, Azərbaycan Buduncu seçginləri arasında, dilimiz, abecemiz (əlifbamız) və görksözümüz üzərində Rus etgisini qoruma və yaşatmağa çabalayan yerli bir toparın (zümrənin) yaranmasına nədən olmuşdur. Bugün Azərbaycanda budunumuz və dilinin ulusal-tarixi adlarını "Türk" və "Türkcə"dən, "Azərbaycan" və "Azərbaycanca"ya dəyişdirməyi savunanlar, iştə bu Rus sömürgəçiliyinin yerli qalıntılarıdırlar.

Azərbaycancanın Sorunları

Yuxarıda sıralanan nədənlərdən dolayı, günümüzdə Azərbaycanca və ya Azərbaycan Buduncunda işlədilən görkül dil, bir çox yöndən sorunlu, olduqca yetərsiz və hətta ölüşgəməyə üz tutmuş bir dildir. Bu sorunlar və onlara irim (diqqət) yetirməmə və dillə ilgili gənəl olaraq idi bir yönətgi və anlayışa yiyə olmamaq, oradakı durumu daha da ağırlaşdırmışdır. Anılan sorunlu yönləri belə sıralayabilərik:

1- Abece (əlifba) sorunları

2- Yazım (ortoqrafi) sorunları

3- Dilbilgisi sorunları

4- Söz dağarcığı sorunları

Bu sorunların çözüm yollarına qıssaca toxunmaq istərsək:

1- Abece əksiklikləri gedərilməlidir. Nazal Ññ, duralı (nüqtəli) Ḳḳ və kəmə himi “ ’ ” (apastrof işarəti) abeceyə artırılmalı, uzun “â” səsi yazıda işlədilməlidir.

2- Rus yazımını ölçüt alma alışqanlığı bıraxılmalı, yazım yanlışlıqları düzəltilməlidir.

3- Farsca sözcüklərin söz dağarcığına girməsi denətim (ḳontrol) altına alınmalı, əski Türkcə və çağdaş ləhcələrimizdə var olan sözcüklər gənə görkül dilə qazandırılmalı, sözcük törətmə süreci yenidən başladılmalıdır….

4- Dilimizdə işlədilən Fars dilbilgisi qurallarının, özəlliklə ilgəç (ədat), ək, …'nin (bə, ki, ta, -kar, -gər, -pərəst, -pərvər, -şünas, -xana, -pərvər, -bin, …) qullanılması bütünüylə durdurulmalıdır.

Aşağıda Azərbaycan Buduncunun "Azərbaycanca" adlanan görkül dilində var olan bir sıra yanlışlıqlar sıralanmış və Türkcədəki düzgün qarşılıqları ayırac (parantez) içində verilmişdir.

==========

Abece Sorunları

==========

1- Azərbaycan və Türkiyə Budunclarının Latın abeceləri, Güneydə gözü qapalı tablanmamalı, bu iki ölkənin denəyimlərindən yararlanaraq İran və Güney Azərbaycan Türklüyünə daha düzgün,

daha məntiqli və daha əksiksiz bir abece düzənlənib yaradılmalıdır. Oluşdurulacaq yeni Latın abece, Azərbaycan Türklərinin bütün altqruplarını – İran'ın quzeybatısı (Güney Azərbaycan), İran'ın güneyi (Qaşqayyurd), İran'ın quzeydoğusu (Afşaryurd) və Əraq Türkman ucqarobasını - qapsayacaq biçimdə tasarlanıb düzənlənməlidir. Oluşdurulduqdan sonra da Güney Azərbaycan və İran Türklərinin Latın Abecesi, sürəkli olaraq gözdən geçirilməli və yalnız Türk dilinin özəllik və gərəksinimləri təməlində gəlişdirilməlidir.

2- Azərbaycan Buduncunun yeni Latın abecesinə gəlincə, bu əlifbadakı sorunlar, biçiklərin (hərflərin) yanlış sıralaması, nazal (Ññ), nüqtəli (Ķķ) biçikləri və kəsə " ' " himinin olmayışı, və yazarkən uzun "â" hərfinin işlədilməməsi olaraq özətlənəbilər. Güney`in latın abecesində bu əksiklik və yanlışlıqların düzəldilməsi gərəklidir:

~~~~~~

Abece sıralaması: Azərbaycan Buduncunun 1991 ilində Latın abecesinə geçişi tikəl (qismi) olmuşdur. Beləki Latın biçikler tablanmış, ancaq biçiklərin sırası hələ də Rus-Kiril abecesində olduğu
~~~~~~

təkindir. Bu abecedə, bütün Latın kökənli abecelərin tərsinə, “X” biçiyinin yeri abecenin sonlarında “V” biçiyindən sonra deyil, abecenin başlarında “H” biçiyindən sonradır. Habelə “Q” biçiyi “P” biçiyindən sonra deyil, abecenin ortasında “K” biçiyindən sonra gəlir:

Aa, Bb, Cc, Çç, Dd, Ee, Əə, Ff, Gg, Ğğ, Hh, Xx, Iı, İi, Jj, Kk, Qq, Ll, Mm, Nn, Oo, Öö, Pp, Rr, Ss, Şş, Tt, Uu, Üü, Vv, Yy, Zz

Bu nədənlə Azərbaycan Buduncunun abecesi gerçəkdə yarı latın (hərflərin biçimi), yarı Kiril (biçiklərin düzülüşü) azı (vəya) qarma bir abecedir. Bu isə özəlliklə sözlük və bilgisayar ortamlarında sözlərin düzülüşündə ciddi sorunlar yaradıb, onları altüst edərək qullanılmaz hala gətirir. Bu üzdən Güneydə Latın abecesində biçiklərin sıralaması Azərbaycan Buduncunda olduğu kimin deyil, uluslararası Latın biçikləri sıralamasına uyumlu olmalıdır.

Güney Azərbaycan- İran Türklüyünün Bütünləşdirilmiş Latın Abecesi:

Otuzdörd Biçik və Bir Him

Aa, Bb, Cc, Çç, Dd, Ee, Əə, Ff, Gg, Ğğ, Hh, Iı, İi, Jj, Kk, Ḳḳ, Ll, Mm, Nn, Ññ, Oo, Öö, Pp, Qq, Rr, Ss, Şş, Tt, Uu, Üü, Vv, Xx, Yy, Zz, ‘

~~~~~~

“Gəniz Ññ”si biçiyinin olmayışı: “Gəniz Ññ” (“nasal n”, “üç nüqtəli ke”, “ng”, “kaf-i Türki”, “kaf-i nuni”, “nun-i qənne”) Türklərə özgü bir səsdir. Ən əski çağlardan bəri günümüzə gəlib ulaşmış olan bu səs, dilimiz və budunumuzun əski Türkcə və əski Türklərə bağlı olduğunun ən sağlam qanıtlarından biridir. Geçmişdə (ڭ) ilə göstərilən bu səs, çağdaş Ərəb köklü Türk abecesində (نگ) biçimində göstərilir. Azərbaycan Buduncunun yeni Latın abecesində isə dilimizdə var “Ññ” səsini qarşılayacaq idi bir biçiyə yer verilməyibdir. Oysa (halbuki) bu biçik Musavat dönəmi və sonrasındakı Latın abecedə öz yerini almışdı. Ayrıca “Ññ” səsi ən əski və əski Türkcə, hətta Sümer kimi Pırototürk dillərdə, habelə Türk görkül və kökləşik (ķılasik) bətiklərdə (mətinlərdə) və Azərbaycan Türkcəsinin bir çox çağdaş ləhcəsində özəlliklə kəndlər və oymaqlar arasında işləkdir (İran’ın güneyində Qaşqay, Güney Azərbaycan’ın Sava və Sulduz, Quzey Azərbaycan’ın Qazax, Qarabağ, Gəncə, Ayrım, Nuxa, Zaqatala, Qax, ..., Xorasan’ın Sərvilayət, Bam Səfiabad, Cölgərux, Gərivan, Bocnurd, Cüveyn, Çağatay , ... ləhcələrində). Dolayısı ilə ən əski və əski Türkcə
~~~~~~

bətiklərin yazıb oxumasını və Türk dilinin İran və Azərbaycandakı çağdaş ləhcələrində yaranan görkül və folķlor yapıtların səbt və oxunuşunu qolaylaşdırmaq (âsânlaşdırmaq) və irimləşdirmək (dəqiqləşdirmək) üçün, “Ññ” biçiyinin Güney’in Latın abecesinə əklənməsi gərəklidir.

~~~~~~

Duralı (Nüqtəli) “Ķķ” biçiyin olmayışı: Dilimizdə qalın və incə olmaq üzərə iki ayrı “k” və “ķ” səsləri vardır. Bunlar “Ķadr” və “Kənd” degilərində olan səslədir. Qalın azı duralı “ķ” səsi, başda Avrupa dilləri olmaq üzərə daha çox yabancı degilərdə işlədilir. Bu iki səs arasıra (bəzən) kəlimələrə ayrıq anlamlar verirlər, örnəyin incə “K” ilə söylənən “Kola” kiçik bağevi anlamında və qalın “Ķ” ilə söylənən “Ķola” bir içəcək (ķoķaķola) adıdır. Azərbaycan Cumhuriyəti Latın abecesində, dilimizdə var olan bu iki fərqli “k” və “ķ” səsləri tək bir biçiklə göstərilir. Bu iki ayrıq səs, Azərbaycan Türkcəsində var olduqlarına görə, kəsinliklə Latın abecemizdə də öz ayrıca yerlərini tapmalıdırlar.
~~~~~~

Kk: Börk, Buradakı, Kakıl, Kal, Kamaş, Kağaz, İki, Kələybər, Kənd, Kərəm, Kilim, Kişi, Kola, Kor, Kosa, Kömək, Kömür, Küçə, Küt, Ördək, Təkər, Üzük

Ķķ: Aķord, Doķtor, Eķonomi, Folķlor, Ķabinet, Ķadr, Ķampanya, Ķanada, Ķaraķter, Ķarmen, Ķazino, Ķolombiya, Ķomando, Ķontrol, Ķosmos, Ķuçuq, Ķulub

~~~~~~

Uzun ââ biçiyin yazıda işlədilməməsi: Çağdaş Türkcədə, Türk kökənli sözcüklərdə “uzun â” səsi yoxdur, ancaq bu səs yabancı sözcüklər özəlliklə Farsca və Ərəbcədən dilimizə girmiş degilərdə vardır və dilimizdə də tayınca (eynən) işlədilir. Azərbaycan’ın yeni Latın abecesində isə “uzun â” biçiyi və səsinin varlığı tablanmamış və buna ək olaraq yazılı dildə də bu biçik işlədilmir. Oysa Türkiyədə olduğu kimi, abecedə ayrıca göstərilməsə də, uzun â’dan, ən azından yazıda, özəlliklə əski və kökləşik bətiklərdə yararlanmaq gərəkir.

Örnəyin “Nâminə” degisi uzun â ilə söylənməsinə tabası, qıssa a ilə (naminə) yazılır. (dilimizdə bu Farsca degini işlətməyə gərək yoxdur.
~~~~~~

Onun yerinə Türkcə “adına” degisi işlədiləbilər). Habelə dilimizdə işlədilən “nâmə”, “-xânə”, “-zâdə”, “-vâri” kimi Farsca degi və əklər də Azərbaycancada uzun â ilə söylənmələrinin tabası, yanlışlıqla qıssa a ilə yazılırlar.

Bu iki ayrı “a” və “â” səsləri bir sıra durumlarda degilərə ayrıq anlamlar yükləyəbilər: asan (Türkcə asmaqdan), âsân (Farsca rahat anlamında); bala (Türkcə kiçik), bâlâ (Farsca yuxarı anlamında); alam (Türkcə almaqdan), âlâm (Ərəbcə dərdlər anlamında); yar (Türkcə yarmaqdan), yâr (Farsca yoldaş anlamında); azar (Türkcə azmaqdan) âzâr (Farsca əziyyət anlamında);

Ayrıca Azərbaycan Buduncu yazımında Farsca və Ərəbcə kökənli adlardakı uzun “â” səsləri də yanlışlıqla Türkcə qıssa “a” ilə göstərilir: Babək (Bâbək), Adil (âdil), Cavid (Câvid), Hadi (Hâdi), …

Başqa örnəklər (ayırac içindəkilər doğru, ayırac dışındakılar Azərbaycan Cumhuriyətindəki yanlış yazılışdır):

adət (âdət), adi (âdi), Adil (âdil), alam (âlâm), ali (âli), alim (âlim), asan (âsân), azar (âzâr), Babək (Bâbək), bala (bâlâ), Cavid (Câvid), dahi

(dâhi), Hadi (Hâdi), hakim (hâkim), halə (hâlə), kafi (kâfi), malik (mâlik), naminə (nâminə), qanun (qânun), sabiq (sâbiq), tabe (tâbe), tarix (târix), vasitə (vâsitə), xanəndə (xânəndə), yar (yâr)

~~~~~~

Apastrofun (kəsənin) olmayışı: Azərbaycanda tablanan Latın abecesinin ən böyük əksikliklərindən biri də kəsə himinə yer verməməsidir. Bu isə dilimizin yazımında çox böyük qarqaşa və pırtlaşlığa yol açmaqdadır.

Degi içində: Örnəyin bu abecedə aşağıda göstərilən ikili degilər tayın (eyni) biçimdə yazılır. Oysa bunların anlamları və doğru yazılışları bütünüylə ayrıqdır:

bədən (بدن)-bədən (بعدا); bəzən (Türkcə bəzənməkdən)-bəzən (بعضا); ələm (علم، الم)-ələm (اعلم daha bilgili), əza (عزا)-əza (اعضا), mədəni (uyqar anlamında)-mədəni (معدني); məlul (ملول)-məlul (معلول); mən (من)-mən’ (منع); mərəz (مرض)-mərəz (معرض); şer (شئر aslan)-şe’r (شئعر); təmir (dəmirin əski söylənişi)-təmir (تعمير), tən (تن)-tən (طعن); tənə (تنه)-tənə (طعنه)
~~~~~~

Başqa örnəklər (ayırac içindəkilər doğru, ayırac dışındakılar Azərbaycan Bucundakı yanlış yazılışdır):

bədən (bədən), bəzən (bəzən), bəzi (bəzi), dava (dâ’va), dəvət (dəvət), edam (e’dam), élan (e’lan), etina (e’tina), etibar (e’tibar), etibarən (e’tibarən), etiraf (e’tiraf), etiraz (e’tiraz), ezam (e’zam), əla (əla), istedad (iste’dad), istefa (iste’fa), löbət (lö’bət), meyar (me’yar), məbəd (məbəd), mədəni (mədəni), məlul (məlul), məlum (məlum), məlumat (məlumat), məmur (məmur), mən (mən’), məna (məna), mənalı (mənalı), mənəvi (mənəvi), məni (məni), məsud (məs’ud), mərəz (mərəz), mərifət (mərifət), məruz (məruz), məruzə (məruzə), məşəl (məş’əl), məyus (məyus), məzun (məzun), möcüz (mö’cüz), mömin (mö’min), mötəbər (mö’təbər), nəşə (nəşə), səy (səy), sürət (sür’ət), şer (şe’r), şöbə (şö’bə), tabe (tabe’), təbir (təbir), təcili (təcili), təlim (təlim), təmin (təmin), təminat (təminat), tən (tən), tənə (tənə), təsir (təsir), tətil (tətil), təxir (təxir), təyin (təyin), yəni (yəni)

Degi sonunda: Azərbaycan Cumhuriyətində tablanan yeni abecedə kəsə himi olmadığından dolayı, özəl adlar və onlardan sonra gələn bir

sıra əklər bitişik biçimdə yazılır və bu da yanlış anlamalara yol açır. Örnəyin bu abeceyə görə iki ayrıq anlamı olan “Bâbək’ i” (Baybək’i öldürdülər) və “Bâbəki” (Baybək’ə mənsub, Baybək’ə bağlı), “Əli’ni” (Əli’ni gördüm) və “əlini” (əlini tutdum), “Təbrizi” (soyadı) və “Təbriz’i” (Təbriz’i özlərdim) degiləri tayın (eyni) biçimdə yazılır.

==

Yazım Sorunları

==

Görüləcəyi kimi, Azərbaycan Buduncunda tablanan yazımdakı sorunların böyük bölümü, bu yazımda Türkcənin yapısı və gərəksinimləri yerinə, Rusca yazımını təməl almaqdan qaynaqlanmaqdadır.

~~~~~~

Degi başındakı “Iı”lar: Azərbaycan Buduncunda tablanan yazımda kəlimə başındakı bir sıra “Iı”lar, Ruscanın etgisi ilə “İi” olaraq yazılır. Bu bütünüylə yanlış bir tutumdur:
~~~~~~

işıq (ışıq), ildırım (ıldırım), ilxı (ılxı)

Azərbaycan Buduncu dilində Rusçanı yansılama dəbi o dənli kök salmışdır ki hətta “Texas” kimi ingilizcə kələmələr “Texas” və nə “Tekzas” şəklində tələffüz edilir.

~~~~~~

Degi başında gətirilən iki, üç, azı dörd ünsüz: Türkcədə idi bir degi iki ünsüzlə başlamaz. Ancaq Azərbaycan Buduncunda tablanan yazımda, özəlliklə deginin başında – gətirilməməsi gərəkdiyi halda – iki hətta üç ünsüzün gətirilməsi kimi bütünüylə yanlış olan durumlarla qarşılaşırıq:

Avstriya (Avusturya), konfrans (ķonferans), plan (pılan), plov (pilov, pılav), prinsip (pirinsip), prioritet (piriyoritet), problem (pıroblem), proqram (pıroqram), qrammatik (qıramatik), qrup (qurup), Rza (Rıza), srağa (ısrağa), stəkan (istəkan), strateji (istirateji), struktur (ısturuktur), Tbilisi (Tibilisi), Nyu-York (Niyu York), Vyana (Viyana), Xristian (Xırıstiyan)

~~~~~~

“Aa” və “iİ” biçiklərini yanyana gətirmək: Azərbaycan Buduncunun tabladığı yazımda, Rus yazımına uyaraq arxa arxaya gələn “i" və “a”larla qarşılaşırıq. Oysa bunların arasında kəsinliklə bir “y” biçiyi artırılmalıdır. (Yabancı olan bu degilərin çoxunun dilimizdə Türkcə qarşılığı var olduğundan dolayı, işlədilmələrinə gərək yoxdur):

a id (âyid), auksioner (aķsiyoner), bioqraf (biyoqraf), dair (dâyir), dialekt (diyalekt), dialoq, (diyaloq), diaspor (diyaspor), fiasko (fiyasķo), funksioner (funķsiyoner), institusional (institusiyonal), İordaniya (İyordaniya), kainat (kâyinat), konfedensial (ķonfedensiyal), konvension (ķonvensiyon), material (materiyal), media (mediya), nail (nâyil), potensial (potensiyal), prioritet (piriyoritet), professional (pırofesiyonal), radiasiya (radiyasiya), region (regiyon), social (sosiyal), tualet (tuvalet), variant (variyant), vəsait (vəsayit), zəif (zəyif), Xətai (Xətâyi)

~~~~~~

Yanlışlıqla qoşalanan biçiklər: Azərbaycan Buduncunda tablanan yazımda, Rus qaynaqlı degilərdəki qoşa biçiklər Türk dilimizin yazımını
~~~~~~

pozmaq bahasına olsa da, tayınca qorunur. Oysa Türkcə yazımında bunlar kəsinliklə tək bir biçik olaraq göstərilməlidirlər, uçra tək səslə söylənirlər. (Yabancı olan bu degilərin çoxunun dilimizdə Türkcə qarşılığı var olduğundan dolayı onların işlədilməsinə gərək yoxdur):

akkord (aķord), assambleya (asambleya), assosiasiya (asosiyasiya), attaşe (ataşe), brüssel (Bürüsel), dollar (dolar), effektiv (efektiv), hobbi (hobi), intellektual (inteleķtual), klassik (ķılasik), kollektiv (ķolektiv), komissar (ķomisar), komissiya (ķomisiya), korrupsiya (ķorupsiya), lobbi (lobi), missiya (misiya), professor (pırofesor), prosse (pırose), qrammatik (qıramatik), rejissor (rejisor), repressiya (represiya), sessiya (sesiya), ssenari (senari), terror (teror)

~~~~~~

Tirənin (-) yanlış qullanımı: Azərbaycan Buduncunda tablanan yazımda tirə imi (defis işarəti) çox geniş bir şəkildə və çox vaxt da gərəksiz yerə qullanılmaqdadır:

1- Tirəni ad tamlamarında (izafi tərkiblərdə) yanlış qullanmaq:

Azərbaycan Buduncu yazımında “i" səsi verən Farsca söz
~~~~~~

birləşmələrindəki kəsrə, ilk degiyə yapışdırılıb və ondan sonra bir “-“ imi artırılaraq iki degi birbirinə bitişik yazılır. (tərzi-hərəkət) Bu, məntiq baxımından yanlış olmaqla birlikdə, uzun bir tərkibin törədilməsinə nədədn olur. Bu sorun özəlliklə söz birləşməsinin ikidən artıq degidən oluşduğu vaxtlar, örnəyin (məsələn) “pənbeyi-daği-cunun”, “tarixi-ali-osman” söz birləşmələrində olduğu kimi, özünü daha görksüz və qabarıq biçimdə göstərir. Bu yöntəm yanlışdır və ad tamlamalarındakı degilər birbirinə bitişik yazılmalıdırlar, ayrıca tirə (-) ilk degi və ondan sonra gələn “-i" arasına artırılmalıdır.

bərgi-gül (bərg-i gül), həddi-buluğ (hədd-i buluğ), nəzmi-nazik (nəzm-i nâzik), nöqteyi-nəzər (nöqte-yi nəzər), pənbeyi-daği-cunun (pənbe-yi dâğ-i cunun), qeyri-adi (qeyr-i âdi), qeyri-bərabər (qeyr-i bərâbər), qeyri-fars (qeyr-i Fars), sui-istifadə (su-i istifâdə), tarixi-ali-osman (Târix-i âl-i Osman), tərcümeyi-hal (tərcümə-yi hal), tərzi-hə rəkət (tərz-i hərəkət)

2- Tirəni birləşik degilərdə qullanmaq: Azərbaycan Buduncu yazımında, bir çox yerdə işlədilməsinə gərək olmayan durumlarda tirə imi qullanılır:

ola-ola (ola ola), düsüb-düsməyəcəyi (düşüb düşməyəcəyi), edilib-edilməməsi (edilib edilməməsi), bir-biri ilə (birbiri ilə),

3- Qıssaldılmış adlarda gərəksiz tirə imi: Azərbaycan Buduncu yazımında, bir sıra sözlərin qıssaldılmış biçimində, sözün düşən orta bölümü yerinə tirə imi qoyulur. Örnəyin "doḳtor"un qıssaldılmış biçimi olan "dr" yerinə, "d-r" yazılır. Bu yöntəm gərəksiz və uyqunsuzdur.

4- Tirə'ni qullanılması gərəkdiyi yerdə qullanmamaq: Azərbaycan Buduncu yazımında bir sıra durumlarda isə tirə qullanılması gərəkdiyinə qarşın qullanılmır.

Noqteyinəzərindən (Noqte-yi nəzərindən)

~~~~~~
~~~~~~

Özəl adları böyük biçiklərlə başlamamaq: Azərbaycanda tablanan yazımda, özəl adlar çox vaxt kiçik biçiklərlə başladılır. Oysa bütün özəl adların böyük biçiklərlə başlaması gərəkir:

azərbaycan (Azərbaycan), ərəb (Ərəb), fars (Fars), ingilis (İngilis), islam (İslam), rus (Rus), türk (Türk), türkiyə (Türkiyə)

Târixi şəxsiyətlərin adlarındakı aşal (rütbə), taxma ad (ləqəb) və bənzərləri: Azərbaycan Buduncu yazımında, târixi şəxsiyətlərin adlarında gələn “Mirzə”, “Şah”, “Ağa”, “Xan”, “Xanım” və bənzəri aşal, taxma ad və ..... ikinci sırada gəlincə, kiçik biçiklərlə yazılır. Oysa bunlar o şəxsiyətlərin adlarının bir bölümüdür və böyük biçiklərlə yazılmaları gərəkir:

Abbas mirzə (Abbas Mirzə), Nadir şah (Nâdir Şah), Abbasqulu ağa (Abbasqulu Ağa), Fətəli xan (Fətəli Xan), Heyran xanım (Heyran Xanım)

Târixi şəxsiyətlərinin adlarını Farsca yazma alışqanlığı: Azərbaycan Buduncu görkül dilində, bir sıra târixi şəxsiyətlərin adları Fars biçimi təmməl alınaraq və yanlış yazılır. Örnəyin “Bâbək” adı uzun â ilə

söylənib qıssa a ilə yazılır. Oysa Farsca kökənli Bâbək adının doğru yazılışı, söyləndiyi kimi uzun â ilə olmalıdır (Bu adın Türkcəsi Baybək'dir). Habelə Türk xaqan, ərklət və soysopların (sülalərin) çoxunun adı da Farsca biçimi ilə yazılır. Örnəyin "Səlcuqi" (Səlcuqlu yerinə), "Qəznəvi" (Qəznəli yerinə), "Səboktəkin" (Sübək Tigin yerinə)

Babək (Bâbək, Baybək), Börküyarıq (Bərk Yaruq), Elxani (Elxanlı), Səboktəkin (Sübək Tigin), Səlcuqi (Səlcuqlu), Qəznəvi (Qəznəli), Yusif (Yusuf), Yunis (Yunus)

~~~~~~

Yanlış yazılan coğrâfi adlar: Azərbaycanda işlədilən yazımda Rus dilindəki biçimlərə bağlı qalmaq nədəni ilə, çoxu zaman coğrâfi adların yanlış yazıldığını görürük. Adların yanlış yazılışı, Türk kökənli və ya Azərbaycan coğrâfi adlarında da görülür:

Bolqarıstan (Bulqarıstan yerinə), Musel (Musul yerinə), Qəzza (Qəzzə yerinə), Urmiya (Urmu yerinə), Yerevan (İrəvan yerinə), Tbilisi (Tiflis yerinə)

~~~~~~

Qıssaldılmış adlardan sonra ara verməmək: Azərbaycanda tablanmış yazımda qıssaldılmış adlardan sonra gələn dura (nüqtə) və ondan sonrakı degi arasında ara (fâsilə) verilmir. Bu yanlışdır və qıssaldılmış kəliməni göstərən biçikdən sonra gələn dura ilə ondan sonrakı degi arasında bir ara verilməlidir:

A.Əmrahoğlu (A. Əmrahoğlu), Ə.Seyidov (Ə. Seyidov), H.Əhmədov (H. Əhmədov), N.Mollayev (N. Mollayev)

~~~~~~

"Qq"ləri "Ğğ" yazıb söyləmək: Azərbaycan görkül dilində Fars səsbilimi (fonetiyi) etgisi ilə, Q'lərin bir çoxu yanlış olaraq "Ğ" şəklində söylənir və yazılır:

Kaşğari (Ķaşqarlı), sayğı (sayqı), sorğu (sorqu), uyğun (uyqun), Uyğur (Uyqur), vurğu (vurqu), almağ (almaq), ...

~~~~~~

"Kk"ləri "Hh" vəya "Yy", "Qq"ləri "Xx" vəya "Ğğ" olaraq söyləmək: Azərbaycan görkül və özəlliklə sözəl dilində kəlimə sonundakı "K"lərin

çoxu “H” vəya “Y” olaraq söylənir. Örnəyin “etmək” yerinə “etməy”, “demək” yerinə “deməy”, “yüksək” yerinə “yüksəh”, “böyük” yerinə “böyüh”, “bilmərik” yerinə “bilmərih”, “gəldikdən” yerinə “gəldihdən”, “istirik” yerinə “istirih”, “eyləməliyik” yerinə “eyləməliyih”, “maraq” yerinə “marax, marağ”. Bu isə görkül dili yerəl ağızlar düzeyinə çəkərək, onu son dərəcə görksüzləşdirir (çirkinləşdirir).

Bu başlıq altında rəsmi dildə belə ağız dilini qullanaraq işlədilən “bunnan” (“bundan” yerinə) və ədəbi dildə qəbul edilən “isti” (“issi”, “ısı” yerinə) kimi durumları da ekləyəbilərik.

~~~~~~

Biləşik eyləmləri (mürəkkəb fe’lləri) aralı yazmaq: Azərbaycan yazımında “-bilmək” yardımcı eyləm-əki ilə oluşdurulan biləşik eyləmlər aralı yazılır. Bu yanlışdır, uçra aralı yazılan “bilmək” eyləmi (bilgili olmaq) anlamındadır. Oysa biləşik eyləmlərdəki “-bilmək” eyləmi, ək görəvini üstlənmiş və bacarmaq anlamındadır. Belənçi
~~~~~~

eyləm-əklər, Türkiyə Türkcəsində olduğu kimi fe'lə yapışıq yazılmalıdır:

ola biler (olabilər), verə bilmir (verəbilmir)

~~~~~~

Avrupa qaynaqlı sözlərin sonuna gətirilən gərəksiz "a" lar: Azərbaycan görkül dilində Rus dili etgisi sonucunda çox sayıda Avrupa qaynaqlı degilərin sonuna "a" azı "ya" gətirilir. Bu, Güney dili üçün tanış olmayan durum və gərəksiz yükdür.

akademiya (aḳademi), forma (form), formula (formul), norma (norm), partiya (parti),

==

Dilbilgisi Sorunları

==

Azərbaycan görkül dili, dilbilgisi (qıramer) baxımından da Farscanın ağır etgisi altındadır. Bu ağır etgi, Azərbaycancanın Türk dilbilgisinə tərs olan bir çox Farsca nəhv ilkə (qayda) və qurallarını
~~~~~~

mənimsəməsinə gətirib çıxartmışdır. Bu sayrılıqlı olqu özünü Farsca “ki”, “bə-be” kimi ilgəçlərin geniş biçimdə işlədilməsi, Türkcə “mi”nin işlədilməməsi, səs uyumuna uymamaq, ... kimi durumlarda ortaya çıxır. (Bunların böyük bir bölümü -dilin yozlaşması, xalqın Farslaşması bəlirtisi olaraq- Güneydə danışılan ləhcələrdə də görülür):

~~~~~~

Farsca “ki” ilgəçini (ədatını) işlətmək: Azərbaycan Buduncunun yazılı və sözəl dilində Farscanın ağır etgisindən dolayı, Farsca “ke” ilgəçi olağanüstü geniş bir ölçüdə qullanılır. Bu isə bütünüylə dilimizin Türk kimliyini pozur və görkül baxımdan ona ilkəl və görksüz bir görüntü verir. Türkcədə Farsca “ke” ilgəçi çox seyrək olan gərəkli durumlar dışında qullanılmamalıdır.

Örnəyin: “Gəldim ki sizi görəm” (doğrusu: “Sizi görməyə gəldim”), “Nâzir təkzib etdi ki hâdisədən xəbəri yoxdu” (doğrusu: Baxan olaydan xəbəri olmadığını yalanladı), ...

Ayrıca Azərbaycancada sıxlıqla “ke” ilgəçindən yararlanaraq yapılmış bir sıra kipləşmiş (qalıblaşmış) cümlələr işlədilir. Örnəyin “qeyd etmək
~~~~~~

lazimdir ki”, “xatırladaq ki”, ... Gərəksiz və anlamsız olan bu qalıblaşmış cümləları qullanmanın, mətləbi uzatmaq və görksüzləşdirməkdən başqa idi bir yararı yoxdur:

